# “Qarabağnamə” – həqiqətin bədii təsviri




**Nizami Kino Mərkəzinə toplaşan ictimaiyyət nümayəndələri, mədəniyyətsevərlər dərin ictimai məzmuna malik, böyük vətənpərvərlik ruhu aşılayan “Qarabağnamə” tammetrajlı televiziya sənədli filminin təqdimatını həyəcanla gözləyirdilər. Əvəzolunmaz zəngin irsi ilə dünya mədəniyyətinə böyük töhfələr verən, 30 ildən çox işğal altında qalsa da, düşmənə təslim olmadığı üçün sinəsinə çalın-çarpaz dağlar çəkilən Qarabağımızla bağlı faktların kino dili ilə ifadəsi hamı üçün maraqlı idi.**

Təqdimat mərasimi Vətən uğrunda canlarını qurban verən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himnimizin səsləndirilməsi ilə başladı. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva giriş nitqində tariximizin, 44 günlük Vətən müharibəsində qazandığımız böyük qələbə ovqatının əks olunduğu filmi uğurlu sənət əsəri kimi səciyyələndirdi.

Xalq rəssamı Arif Hüseynov qeyd etdi ki, filmdə əsas hədəf erməni vəhşiliklərini bütün dünyaya vizual formada çatdırmaqdır: “Əsərlərin hər biri üzərində iki dildə yazılmış kiçik mətnlər vardır ki, bu dəhşətli hadisələr haqqında mühüm informasiya əhəmiyyəti daşıyır”.

Rejissor Elnurə Kazımova, Xalq rəssamı Ağəli İbrahimov, Əməkdar jurnalist Etibar Babayev və digərləri çıxış edərək “Qarabağnamə” filminin təbliği əhəmiyyətindən danışdılar. Qeyd etdilər ki, filmin bir önəmi də xalqımızın tarixi, zəngin və mədəni irsini təbliğ etməsidir.

Sonra film nümayiş etdirildi. Elnurə Kazımovanın rejissorluğu ilə Xalq rəssamı Arif Hüseynovun “Qarabağnamə” adlı silsilə əsərlərinin və “Qarabağnamə-tarixin səhifələri” kitabının motivləri əsasında çəkilən ekran əsəri maraqla izləndi.

Rəssamın qravüra texnikasında ərsəyə gətirdiyi qrafik lövhələrə nəzər saldıqca, elə bil, doğma Qarabağa səyahətə çıxırsan. “Qarabağnamə-tarixin səhifələri”nin əsas simvolu kimi ilk olaraq Qarabağın açarı – Xarıbülbülün təsviri isə qəlbləri riqqətə gətirir. Dini abidələrimiz, zəngin incəsənət rəmzləri, zəfərimiz yüksək yaradıcılıq, böyük sevgi ilə təqdim edilir.

Müzəffər Azərbaycan Ordusunun əldə etdiyi böyük qələbədən ruhlanan rəssam tarixi zəfərə həsr olunmuş silsilə plakatlar yaradıb. “Biz qalibik” plakatındakı təsvirlərdə Ali Baş Komandanın dəmir yumruğunun əksi ölkəmizin, xalqımızın dinc və xoşbəxt həyatının qarantı olduğu bir daha nümayiş etdirir.

Orijinal kompozisiyaya malik ekran əsərinə tamaşa etdikcə bu torpağın keçmişindən, zəngin tarixindən qürur hissi keçirdik, işğaldan azad edildikdən sonra işıqlı gələcəyinin təsviri məmnunluq yaratdı.

***Fidan HÜQUQQIZI,***
***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 1 aprel.- S.11.